







# ŞAH VƏ ŞAH OBRAZI

Azərbaycan folkloru öz zənginliyi ilə həmişə diqqət mərkəzində olub. Eləcə də folklorşunaslıq elmi il-ildən zəngin tədqiqatları və dəyərli təqdiqatçıları ilə özünü təsdiqləyir ki, bunun da bariz faktı Milli Elmlər Akademiyasında ayrıca Folklor İnstitutunun fəaliyyətə başlamasıdır. Bir neçə il bundan əvvəl yaradılmış bu elm ocağında hər il onlarla kitab işıq üzü görür. Burada çalışan gənc alimlərin işləri də diqqəti çəkir. Bu alimlərdən biri də Şakir Albalıyevdir.

Şakiri on ildir ki, tanıyıram. Hələ o zamanlar «Kredo» qəzetində onunla bağlı çap olunan «Tarix dərsləri» adlı silsilə yazılardan, sonra onun «Şakir Əlifoğlu», «Şakir Albalı» imzası ilə çap etdirdiyi publisistik yazılarından və daha sonra namizədlik işi olan, folklorla bağlı elmi məqalələrindən...

1969-cu ildə Cəbrayıl rayonunda dünyaya göz açan, 1989-95-ci illərdə BDU-nun filologiya fakültəsində təhsil alan, Cəbrayıl və Saatlı rayonlarında dil-ədəbiyyat müəllimi işləyən, «Kredo» qəzetində məsul katib və şöbə müdiri kimi çalışan, «Xudafərin» qəzetinin baş redaktoru olan Şakir Əlifoğlu, nəhayət, uzun zəhmət və səydən sonra müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi alaraq bu sahədə də özünü təsdiqlədi.



Onun «Təknur» nəşriyyatında çap olunmuş «Azərbaycan nağıllarıda şah obrazı» adlı ilk kitabı elmi tədqiqat işidir. Kitab AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunmuşdur. Kitabın redaktoru AMEA-nın müxbir üzvü, professor Azad Nəbiyev, rəyçiləri f.e.d. Məhərrəm Cəfərli, f.e.n. Oruc Əliyevdir. Azad Nəbiyev kitaba ön söz yazımışdır. Gənc alimin işini müsbət qiymətləndirən professor monoqrafiyanın əhəmiyyətini qeyd edərək yazır: «Gənc tədqiqatçı monoqrafiyada şah obrazının yaranma və inkişafının tarixi əsaslarından başlayaraq, bugünəqədərki inkişaf dövrünə ümumi bir nəzər yetirmişdir. Məsələ ilə bağlı maraqlı cəhətləri müşahidə etmiş, idarəetmə üçün əhəmiyyətli detallara diqqət yetirə bilmişdir. Tədqiqat göstərir ki, Şakir Albalıyev nağılçılıq probleminə ümumiyyətlə yaxından bələddir, onunla bağlı həm praktiki, həm də nəzəri materialları kifayət qədər öyrənmişdir».

Monoqrafiya giriş və üç fəsildən ibarətdir. Müəllif girişdə Azərbaycan folklorşünaslığının genişhəcmli janrı olan məişət nağıllarının toplanması işindən və bu sahədə əldə edilmiş müvəffəqiyyətlərdən söz açır və ömrünü folklorşünaslıq elminin inkişafına həsr edən dəyərli alimlərin nəşrlərini diqqətə çatdırır. O, məişət nağıllarının bu vaxta kimi əhatəli araşdırmaya cəlb edilmədiyini və ümumi tədqiqatlarda isə nağıllardakı şah obrazına çox vaxt mənfi tərəfdən yanaşıldığını qeyd edir, bu səbəbdən araşdırmaların dərinləşdirilməsinə, daha əhatəli tədqiqatların aparılmasına böyük ehtiyac olduğunu və bu səbəbdən də bu mövzuya müraciət etdiyini bildirir.

"Nağılların təsnifi məsələlərinə dair" adlı birinci fəsildə tədqiqatçı-alim nağılların yazıya alınması və nəşr olunması ilə bağlı görülən işləri diqqətə çatdırır və bu sahədə zəhmət çəkən tədqiqatçıları, naşirləri minnətdarlıqla yad edir. Burada həm çap, həm də arxiv materiallarına istinad edərək, folklor tariximizə bir növ ekskursiya edir, həm toplama materiallarını, həm də tədqiqat işlərini diqqətə çatdırır.

Nağılların təsnifinin və tədqiqinin bəzi məsələlərinə öz münasibətini bildirən müəllif Hənəfi Zeynallı, Məhəmmədhüseyn Təhmasib, Paşa Əfəndiyev, Vaqif Vəliyev, Azad Nəbiyev kimi böyük alimlərin və bir sıra gənc tədqiqatçı-alimlərinı işlərini dəyərləndirir. Burada Yusif Vəzir Çəmənzəminlinin, A.Aarne və N.P.Andreyevin, Azad Nəbiyevin tədqiqat işlərini və təsnifat üsullarını daha qabarıq göstərən tədqiqatçı müqayisələr apararaq, hər bir xalqın nağılının milli zəmində öyrənilməsinin vacibliyini qəbul edir və yazır: "...dünya nağıl yaradıcılığının tərkib hissəsi olan Azərbaycan nağıllarını dünya nağıl modeli ilə birləşdirən nə qədər müxtəlif ümumiliklər olsa da, nağılların nə qədər müxtəlif təsnifat qrupları və sistemləri mövcud olsa da, onu öz milli zəminində, mövcud toplanma materialı əsasında araşdırmaya cəlb etmək gərəkdir. Bu mənada professor A.Nəbiyevin son təsnifatını əsas götürməklə Azərbaycan nağıllarını ənənəvi təsnifat bölgüsündə götürməyi daha düzgün hesab edirik: heyvanlar aləmindən bəhs edən nağıllar. sehrli nağıllar, məişət nağılları, uşaq nağılları..."

Monoqrafiyanın ikinci fəsli ''Məişət nağıllarında şah obrazının meydana gəlməsinin tarixi əsasları" adlanır. Tarixə üz tutan müəllif Şərqin böyük nağıl kitabı hesab olunan və ilkin şah obrazlarının göründüyü "Kəlilə və Dimnə"dən başlayır, onun ilk naşirlərindən biri olan Behnud ibn-Səhvanın kitaba yazdığı müqəddiməyə istinad edərək, kitabın yazılma səbəbini açıqlayır, kitabın filosof Beydəba tərəfindən məhz şahların tərbiyələndirilməsi üçün yazıldığını diqqətə çatdırır. Daha sonra "Min bir gecə nağılları"ndan bəhs açan tədqiqatçı-alim hər iki silsilənin tarixi dəyərini göstərməyə çalışır.

Bu fəsildə məişət nağıllarındakı hökmdar obrazmın sələfləri olan sehrli nağılların padşah, şah, xan obrazlarından ayrıca danışan müəllif həm ədalətli, həm də ədalətsiz hökmdarların səciyyəvi xüsusiyyətlərini göstərir. O, ədalətli şah obrazının tarixən formalaşması məsələsinə ciddi yanaşır və geniş, əhatəli tədqiqatları ilə fikirlərini əsaslandırır. Bəzi nağıllarda zalım, ədalətsiz şahların sonda ədalətli hökmdara çevrildiyini, bəzən isə əksinə, ədalətli şahların cəmiyyətdə zalımlaşdığını göstərir və misallarla fikirlərini əsaslandırır.

Tədqiqatçı məişət nağıllarında padşah və rəiyyət münasibətlərini də araşdırır və tarixi tədqiqatlara əsaslanaraq, rəiyyətlə münasibətinə görə ədalətsiz hökmdarların belə qruplaşmasını qəbul edir və bunlar haqqında geniş danışır:

1. Ümumiyyətlə, rəiyyətin kasıblığına çalışan və bununla da hakimiyyətinin əbədiliyini təmin etmək istəyənlər.

2. Cəmiyyətdə özündən ağıllı hesab edilən adamları məhv etməklə öz taxtacını möhkəmlətmək istəyənlər.

3. Xalqın qəhrəmanlıq, mübarizlik ruhunu məhv etməklə rəiyyəti kölə halına salıb özünə tabe etmək istəyənlər.

Monoqrafiyanın üçüncü fəsli "Məişət nağıllarında Şah Abbas obrazı" adlanır və adından göründüyü kimi bütövlükdə bu obrazın açılmasına həsr edilmişdir. Müəllif bir sıra Azərbaycan nağıllarında Şah Abbas obrazını misal göstərir və onu həm bir nağılın şah obrazı kimi səciyyələndirir, həm də tarixi şəxsiyyət kimi rolunu qeyd edir.

Kitabın sonunda nəticə və ədəbiyyat siyahısı verilmişdir. Kitab həm folklorşünaslıqla məşğul olmaq istəyənlər üçün, həm də nağıllarımızın dəyərini, onların tariximizdə, milli mentalitetimizdə oynadığı rolu öyrənmək baxımından qiymətlidir. Kitabı oxuduqda və zəngin ədəbiyyat siyahısına nəzər yetirdikdə hiss olunur ki, gənc tədqiqatçı-alimin uzun illər çəkdiyi əzab-əziyyətinin bəhrəsidir. Müəllifə gələcəkdə daha böyük uğurlar arzulayırıq.

*Sona XƏYAL*
*"Bütöv Azərbaycan" qəzeti,*
*07-14.04.2010*